DOI: https://doi.org/10.36719/2663-4619/118/100-104

**Aytac Əhmədli**
ADMİU nəzdində Humanitar Kolleci
https://orcid.org/0009-0004-4301-0249
aytac.akhmedli@mail.ru

# Üzeyir Hacibəylinin Azərbaycan mədəniyyət tarixində yeri və rolu

## Xülasə

Məqalədə dahi Azərbaycan bəstəkarı, görkəmli pedaqoq-alim, Azərbaycan musiqi sənətinin ən nadir incilərini yaradan bəstəkar, qüdrətli sənətkar Üzeyir Hacibəylinin yaradıcılığının işıqlandırılmasına cəhdlər edilmişdir. Hacıbəyli nəinki Azərbaycan musiqi sənətində, bəstəkar musiqisində silinməz izlər buraxmışdır, eyni zamanda Azərbaycan ictimai fikrinin inkişafında xüsusi rolu olan şəxslərdəndir. Görkəmli bəstəkarın yaradıcılığı təkcə musiqi sənəti ilə bitmir. Onun yaradıcılığı daha geniş diapazonları əhatə edir. Bəstəkarın yaradıcılığı sovet dövründə hər nə qədər dar çərçivədə olsada dahi bəstəkar Azərbaycan mədəniyyətinin, Azərbaycan ictimai fikrinin inkişafı üçün böyük işlər görmüşdür

***Açar sözlər:*** *bəstəkar, pedaqoq, publisist, ictimai fikir, opera*

**Aytaj Ahmadli**
College of Humanities under ADMIU
https://orcid.org/0009-0004-4301-0249
aytac.akhmedli@mail.ru

# The Place and Role of Uzeyir Hajibeyli in the Cultural History of Azerbaijan

## Abstract

The article attempts to shed more light on the work of Uzeyir Hajibeyli, an Azerbaijani composer, a prominent teacher-scientist, a composer who created the rarest pearls of Azerbaijani musical art. Hajibeyli left an indelible mark not only on Azerbaijani musical art, but also on his composer's music.

Composer is also one of the people who played a special role in the development of Azerbaijani public opinion. The work of the composer does not end with music alone. His work covers a wider range. Although the composer's work was limited in scope during the Soviet era, the great composer did great work for the development of Azerbaijani culture and Azerbaijani public opinion.

***Keywords:*** *composer, educator, publicist, public opinion, opera*

## Giriş

Azərbaycan ictimai-mədəni mühitinin tələb və çağırışlarını dərindən hiss edən Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyəti qarşısında xidmətləri misilsizdir. Üzeyir Hacıbəyli elm xadimi, yazar kimi tanınmışdır. Lakin dahi sənətkarın ən böyük xidmətləri Azərbaycan musiqisinin inkişafı ilə bağlıdır. Qeyd etmək lazımdır ki, Üzeyir bəy Azərbaycanda musiqi elminin əsasını qoyan şəxsiyyətlərdən sayılr. SSRİ xalq artisti (1938), Azərbaycan Elmlər Akademiyasının akademiki, professor (1940), Stalin mükafatının sahibi, Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuşdur.

**Tədqiqat**

Göründüyü kimi dahi bəstəkar, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi, görkəmli musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim yaradıcılığının zənginliyi və çox şaxəliliyi ilə diqqəti cəlb edir. İlk milli Azərbaycan operasının banisi Ü.Hacıbəyli Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" operası ilə Azərbaycanda

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

və bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur. Üzeyir bəyin mədəni irsi Azərbaycan dövləti və milləti tərəfindən yüksək qiymətləndirilir, mütəmadi olaraq Üzeyir Hacıbəyli yaradıcılığı ilə bağlı yubiley və anım tədbirləri təşkil olunur. Nümunə kimi 1995-ci ildə Üzeyir bəyin 110 illiyi, 2025-ci ildə Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamları xüsusi olaraq qeyd olunmalıdır. Müvafiq olaraq Üzeyir Hacıbəyli irsinə bir daha nəzər salınması məqsədəuyğun olardı.

**Həyat və yaradıcılığı**

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci il sentyabrın 17-də(5-də) Ağcabədidə anadan olmuşdur. Sonra Hacıbəyovlar ailəsi Şuşa şəhərinə köçmüşdür. Ü.Hacıbəyli ilk təhsilini Şuşada iki sinifli rus-azərbaycan məktəbində almışdır (Üzeyir Hacıbəyov kimdir?, 2021; Qobustan, 2013). Tarixi ədəbiyyatların verdiyi məlumatlara görə, 1896-cı ildə Üzeyir böyük qardaşı Zülfüqar və əmisi Hacıbəy Hacıbəyovla birlikdə şairə xan qızı Xurşidbanu Natavanla görüşür və xan qızının təqdimatlarının köməkliyi ilə 3 il sonra olsa da 1899-cu ildə Qori müəllimlər seminariyasına daxıl olur. 1899-1904-cü illərdə Qori müəllimlər seminariyasında təhsil alır. Ü.Hacıbəylinin dünyagörüşünün formalaşmasına seminariya təhsili ciddi təsir göstərmişdir. Hacıbəyli seminariyada təhsil alarkən Avropa musiqi klassiklərinin əsərləri ilə tanış olmaq imkanı əldə etmişdir (Üzeyir Hacıbəyov haqqında seçilmiş xatirələr və məqalələr, 1990).

Seminariyada təhsilini bitirdikdən sonra Qarabağ kəndlərinin birində müəllim işləyir. Sonra Üzeyir bəy 1905-ci ildə Bakıya gələrək Bibiheybət rayonunda müəllimlik edir (Üzeyir Hacıbəyov kimdir?, 2021; Qobustan, 2013). Əsrin əvvəllərində azərbaycan dilindən ruscaya, rus dilindən azərbaycancaya məqalələr tərcümə edən Ü.Hacıbəyli publisist fəaliyyətinə 1905-ci ilin iyulunda Bakıda çıxan "Həyat"qəzetində başlasada əsas publisistika məktəbini "İrşad"-da keçmişdir (Aslanov, 1977, s. 16-20; Qobustan, 2013, s. 13-17). Qeyd etmək lazımdır ki, İrşad qəzetinin müdiri Əhməd bəy Ağaoğlu, naşiri İsa bəy Aşurbəyov idi. İrşadın 1905-ci ildə 11, 1906-cı ildə 296, 1907-ci ildə 134, 1908-ci ildə isə 95 nömrəsi nəşr olunmuşdu. Qəzetin 1906-cı il fevral nömrələri Ü.Hacıbəyli müvəqqəti müdirliyi ilə, mart ayında isə bir neçə nömrə onun baş mühərrirliyi ilə çap edilmişdir. "İrşad" qəzeti Üzeyir bəyi ictimaiyyətə peşəkar jurnalist kimi tanıtdı. Sözügedən qəzetdə Ü.Hacıbəyovun bir sıra məqalə və felyetonları dərc edildi.

1906-cı ildə martın 14-də "İrşad" qəzetində "Məruzələrimizdən biri" məqaləsində mütəfəkkir Azərbaycanda mövcud vəziyyəti özünəməxsus şəkildə təhlil edərək yazırdı ki, həmcivarlarımıza nisbətən ticarətimizin kasadlığına, dürlü-dürlü sənətlərdən məhrumiyyətimiz və elmdə geriliyimizə yol vermək olmaz və cürətli olmaq lazımdır. Bu istiqamətdə fikrini davam etdirən publisist-mütəfəkkir yazırdıki, hər bir çətinlik müqabilində aciz qalıb, məqsədimizdən sərfi-nəzər etsək, mütləqa başqalarına möhtac olacağıq. Möhtaclıq da məlum olduğu üzrə, insanın tənəzzülünə yardım edən bədbəxtlikdir. Hər bir sahibkara lazımdır ki, həmişə tərəqqiyə mayil olsun, ətalət və bətaət ilə iş görsək, gündən-günə tənəzzüldə qalacağıq. Əsrimiz isə tərəqqi əsridir (Məmmədli, 1984, s. 205).

Daha sonra diqqətimizi Üzeyir bəyin 1906-cı ildə may ayında "İrşad" qəzetində dərc edilən "Dövlət Dumasının açılması" məqaləsindəki səsləndirdiyi fikirlər cəlb edir. Üzeyir bəy sözügedən məqalədə kəndli, fəhlə və yoxsul sənətkarların ağır güzəranlarına diqqət yetirərək təbəqələşmə prosesinin neqativ meylləri və səbəblərini nəzərdən keçirmişdir. Üzeyir bəy yazırdı ki, bu tərəfdən dəxi millətin ehtiyacı gündən- günə artır, kəndlilərin özlərini dolandırmağa və hökümətə xərac verməyə kafi qədər yeri yox idi. Halbuki belə bir böyük Rusiyada nə qədər boş yer var idi və bu yerə möhtac olan kəndlilərə verməyib, bəzisinə xəzinə yeri, bəzisinə udel yeri, bəzisinə kabinet yeri deyib, nəfini özləri götürürdülər və bununla da belə yazıq kəndlidən xərac alırdılar. Fəhlələrində dəxi işləri çox pis idi.Yazıq fəhlə gündə on dörd saat işləyib, cüzi muzd alırdı və bununla belə bilmirdi ki, dincəlmək nədir, bayram nədir, tərəqqi nədir, əhlü-əyal nədir, ev nədir, eşik nədir? Ancaq onu bilirdi ki, işləmək lazımdırki, özü, əhlü əyalı acından ölməsin. Kəsbkar və sənətçilərində alış verişlərində halı yaman idi. Bu "birbaşa və əlavə vergi və xərclər binəvaların evini yıxardı. Kasadlıq, filan nəzərə alınmırdı. Ticarət və sənət tərəqqi əvəzinə tənəzzülə düşürdü. Ancaq hiyləgər və təlləlüqçülər pul qazanıb onlarda bir yandan xalqı dartıb sökürdü. Mədəniyyət və maarif, yəni elm, fənn camaat arasında yayılmırdı. Çünki elm öyrənmək hamıya vacib deyildi və pulsuzda məktəb açmaq istəmirdilər. Deyilənlərlə yanaşı Üzeyir bəy cəmiyyətin imkanlı təbəqələri barədə yazırdı ki,

burjualar isə bunlardan pul güdənlərdir, hər biri böyük iş sahibləridirlərki, zəhmətkeş və əkinçi adamların vasitəsi ilə pul qazanıb, heç halda zəhmətkeşin halına yanmır, onların amalı çox işlədib, çoxda pul və sərmayə qazanmaqdır. Onların mühafizə edib gözlədikləri yalnız bir puldur, sərmayədir. Zəhmətkeşlərin məişətini yüngülləşdirmək onların ağlına gəlməz, zəhmətkeşin elmli, əqli-səlim sahibi, qanacaqlı olmağı onlara xoş gələn şeylərdən deyil və birdə zəhmətkeş nə qədər möhtacdırsa, bir o qədərdə onlara xeyirdir. Çünki zəhmətkeş üzüqara möhtaclığın üzündən hər bir əzab və zəhmətə razı olub, burjuanın keyfi istədiyi kimi işləyəcəkdir. Mülkədarlar dəxi burjua qismindədir. Bunlar böyüklük və ağalıq kimi şeyləri çox sevərlər. Bunların əqidəsində kəndli yaranıbdırki, ağasına qulluq edib, ona pul qazansın, lakin nə tövr qazansın, nə ilə qazansın, qazanmağa iqtidarı varmı? Bunlar daha ağanın işi deyil. Mülkədarın yeri var, kəndlinin yeri yoxdur. Ona görə kəndçi yerə möhtacdır və bu möhtaclıq da onu nökərçiliyə məcbur edir. Bu gün bütün Rusiyanı bürüyən aclığa səsbəb kimdir? Mülkədarlar!. Eyni zamanda Ü.Hacıbəyli "Molla Nəsrəddin" jurnalı ilə də əməkdaşlıq edirdi. Ümumiyyətlə, 1905-1913-cü illərdə Hacıbəyovun 1000-dən yuxarı publisistik məqaləsi sözügedən mətbuat orqanlarında dərc olunmuşdur (Əliyeva, 1992, No12, s. 103).

Daha sonra qeyd etmək lazımdır ki, 1905-ci il dekabr ayının 17-də nəşr olunmağa başlayan "İrşad"-da türk dilində siyasi, iqtisadi, ictimai, elmi və ədəbi məsələlərlə əlaqədar məqalələr dərc edilirdi. Üzeyir bəy "İrşa" qəzetində çox saylı məqalələr dərc etdirmişdir. Daha sonra Üzeyir Hacıbəyli 1907-ci ildə ibtidai məktəblər üçün Azərbaycan dilində hesab məsələləri kitabını yazdı. "Hesab məsələləri" dərsliyi 105 səhifədən ibarət idi və dərsliyə 352 məsələ daxil edilmişdi . Dərslikdə Azərbaycanın fəhlə, kəndli, əkinçi, bostançı, cütçü, balıqçı, dərzi, misgər, xalça - palaz toxuyan və digər peşə sahiblərinin, sənətkarların güzəran və iş şəraitini əks etdirən məlumatlar öz əksini tapmışdır (Məmmədli, 1984, s. 207).

Belə bir zəmində publisist-mütəfəkkirin iri həcmli "Türki-Rusi" və "Rusi-Türki" lüğəti diqqəti cəlb edir. Lüğət 1907-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində çap olunmuşdur. Lüğət 124 səhifə olub 2000-nə qədər söz terminlərindən ibarətdir. Lüğət əsasən iki hissəyə ayrılır. Birinci hissədə terminlərin leksik və semantik, ikinci hissədə isə rus dilindəki terminlərin Azərbaycanca qarşılığı yazılmışdır. Lüğətin türkcə-rusca hissəsi 97 səhifədən, rusca-türkcə olan hissəsi 27 səhifədən ibarətdir. Lüğətdə həmçinin sözlərin mənşəyi (ərəb, fars, türk, fransız, latın, yunan, italyan, rus, ingilis, macar, alman, ləhcə) xüsusi olaraq qeyd edilmişdir. Lüğətin tərtib olunması zərurəti naşir tərəfindən əsaslandırılırdı. Burada qeyd edilirdiki, zaman keçdikcə, dövran dəyişdikcə cəmiyyət inkişaf edir, cəmiyyətdəki, yenilikləri, hətta 10 il bundan əvvəlki anlayışların belə dilimizdə qarşılığını tapmaq çətindir. Misal olaraq öküz qoşqusunun da, avtomobilində araba adlandırılmasını mütəfəkkir düzgün hesab etmirdi. Digər tərəfdən lüğətin rus dilindən-azərbaycan dilinə, azərbaycan dilindən-rus dilinə sözlərin tərcüməsinin nəzərdə tutulması, iki hissəli olması bu iki dildən hər hansı birininin öyrənilməsini asanlaşdırmaq məqsədi də daşıyırdı. Göründüyü kimi, XX əsrin əvvəllərində rus və Qərbi Avropa xalqlarının dillərindən əxz edilən və elmi dövriyyədə olan, lakin dağınıq şəkildə istifadə edilən bütün terminləri ilk dəfə olaraq Üzeyiri bəy bir lüğətdə toplamışdır. Burada siyasi, hüquqi, iqtisadi və digər terminlər cəmlənmişdir (Məmmədli, 1984, s. 245). Eyni zamanda qeyd etmək lazımdır ki, publisit-mütəfəkkirin 1907-1912-ci illərdə bədii və musiqi yaradıcılığı daha çox diqqəti cəlb edir. Həmin illərdə O, "Leyli və Məcnun", "Ər və arvad", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu", "Harun və Leyla", "Əsli və Kərəm", "Şeyx Sənan", "O olmasın bu olsun" kimi opera və musiqi komediyaları yazır (Üzeyir Hacıbəyov kimdir?, 2021, s. 7). Məhz bu səbəbdəndirki, Ü.Hacibəyli jurnalist fəaliyyətindən uzaqlaşaraq əsas diqqətini musiqi yaradıcılığına yönəldir (Səməndərov, 2021, s. 28). O, 1911-ci ildə Peterburqa gedir. Peterburqda olduğu zaman "Arşın mal alan" musiqili komediyasını yazır. Komediya ilk dəfə 1913-cü ildə Bakıda tamaşaya qoyulmuşdur. Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar Ü.Hacıbəyli Peterburqda təhsilini davam etdirə bilməyib Bakıya qayıdır (Üzeyir Hacıbəyov kimdir? 2021, s. 7). Qeyd etmək lazımdır ki, "O olmasın bu olsun", "Arşın mal alan" və s. kimi əsərlərdə Azərbaycan məişətinin, müxtəlif sosial qrupların yaşayış tərzi, meyl və düşüncələrini özündə əks etdirən epizodlar var. Məhz Ü.Hacibəyli yaradıcılığı sayəsində XX əsrin əvvəllərində Azərbaycandakı adi məişət hadisələri əbədiləşdirilərək dünya incisi səviyyəsinə qədər yüksəldilmişdir. Daha sonra 1915-ci ildə sentyabrın 18-də "Yeni İqbal" qəzetinin redaktoru, oktyabrın 11-dən 1916-cı il fevralın 9-dək qəzetin müdiri və

baş redaktoru kimi çalışdığı illər Ü.Hacıbəyli yaradıcılığının növbəti mərhələsi kimi qavranıla bilər. Bu qəzetdə mütəfəkkirin onlarla məqalələri nəşr olunmuşdu (Alekperova, Zabolotskiz, 1988, s. 115). Daha sonra 1915-ci ildə Ü.Hacıbəyli "Harun və Leyla" operasını yazır. Bu əsər nəşr olunsa da səhnələşdirilməmişdir (Kasimov, İbraqimov, 1985, s. 91). Üzeyir bəy 1918-ci il mayın 28-də elan olunmuş müstəqil Azərbaycan Demokratik Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin redaktorlarından biri idi. Üzeyir bəylə yanaşı qəzetə Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, 1919-cu ildə müvəqqəti olaraq Xəlil İbrahim redaktorluq etmişdir. Qeyd etmək lazımdır ki, Ü.Hacıbəyovun yaradıcılığının sonrakı dövrü sovet hakimiyyəti illərini əhatə edir. Görkəmli ideya və qələm sahibinin, Cümhuriyyət ideoloqlarından biri kimi Ü.Hacıbəylinin Sovet dövründə də yaşayıb yaratmaq imkanı əldə etməsi müstəsna hal kimi qəbul edilir (Məmmədli, Quliyev, 1975, s. 15). O, sovet dövründə musiqi sahəsində alim-nəzəriyyəçi kimi fəaliyyət göstərmişdir (Qaçayev, 1983, s. 255).

1920-ci ilin yayından başlayaraq, Ü.Hacıbəyov Maarif Komissarlığının tapşırığı ilə bir neçə il ərzində Azərbaycanda musiqi-maarifləndirmə proqramını işləyib hazırladı. Proqramın tərkibinə 3 məsələ daxil edilmişdi. 1) Ümumi musiqi mədəniyyətinin tərbiyəsi, 2) Xalq musiqisinin öyrənilməsi, 3) Azərbaycanlıların Avropa musiqisi ilə təmaslarının genişləndirilməsi. 1921-1926-cı illərdə Azərbaycanda musiqi konservatoriyası, texnikumu və məktəblərinin açılışında Ü.Hacıbəylinin xidmətləri böyük olmuşdur (Safarova, 1973, s. 46; Üzeyir Hacıbəyov Ensiklopediyası, 1996, s. 193). 1932-1937-ci illərdə Ü.Hacıbəyov "Koroğlu" operası üzərində çalışaraq 1937-ci ildə aprelin 30-da əsərin səhnələşdirilməsinə nail olur (Kasimov, İbraqimov, 1985, s. 91). Üzeyir bəyin 1945-ci ildə xalq musiqisinin əsasları kitabı nəşr edildi.

## Nəticə

Ümumiyyətlə Üzeyir bəyin musiqi yaradıcılığının zirvəsi kimi "Koroğlu" operası qeyd olunur. Sözügedən əsərdə klassik opera qaydaları əsasında ariyalar, kütləvi xor səhnələri yaradılmışdır. Hacıbəyli eyni zamanda 300-dən çox xalq mahnısını toplayıb nota salmlmış, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor üçün əsərlər yazmışdır (Balinskiy raboçiy, 1931).

Lakin bu o demək deyil ki, Üzeyir bəy sovet dövründə təzyiqlərə məruz qalmamışdır. Üzeyir Hacıbəyli də yaradıcılığının sovet dövründə yaşadığı illər ərzində ciddi təzyiqlərlə qarşılaşmalı olurdu. Bu xüsusda diqqəti 1931-ci il dekabrın 4-də «Бакинский рабочий» qəzetində bir qrup mətbuat işçisinin (Serqey Nevedomıy, A.Manaflı, Ş.Abbasov) "O olmasın bu olsun Dövlət operasında" sərlövhəsi ilə dərc edilən materiala yönəldilməsi yerinə düşərdi. Burada iddia olunurdu ki, köhnə, xırda burjua pyesi "O olmasın bu olsun" yenidən səhnələşdirilmişdir. Əsərdə əksinqilabi Azərbaycanın feodal-patriarxal məişəti ideallaşdırılır. Gənc rejissor Soltan Zəki Dadaşovun bu əsəri sosial satiraya çevirmək cəhdləri isə boşa çıxmışdır. Burada sosial satira nümunələri səthidir, ayrı-ayrı məqamlarda ancaq diqqəti cəlb edir (Aslanov, 1985). Təbiidir ki, bütün bu təzyiqlər nəticəsində sovet dövründə Ü.Hacibəyovun çox şaxəli yaradıcılıq nümunələri içərisində publisistik dəyərləndirmələrə demək olar ki, rast gəlmək qeyri mümkündür. Bütün bunlara baxmayaraq Ü.Hacıbəylini çox şaxəli, geniş imkanları olan və bunu çox zaman reallaşdırmağı bacaran dahi kimi qiymətləndirmək olar. Bir tərəfdən özünün bədii və publisitik yazıları ilə Azərbaycan ictimai siyasi fikrinin görkəmli nümayəndəsi kimi fəaliyyət göstərən Ü.Hacıbəyli eyni zamanda Azərbaycanda musiqi nəzəriyyəsini və musiqi mədəniyyətini çox qısa vaxt ərzində öz zəngin tarixi köklərindən qidalanmaqla müasir inkişaf standartlarına cavab verən səviyyəyə çatdırmışdır (Slovo ob Uzeire Qadjibekova, 1985, s. 5). Göründüyü kimi, dünyada daha çox bəstəkar kimi tanınan Ü.Hacıbəyli yaradıcılığı bir çox sahələri əhatə etməklə yanaşı, əsas qayəsi millətin tərəqqisinə xidmət etmək olmuşdur. Burada azərbaycanlıların elmin və texnikanın nailiyyətlərindən istifadə edərək daha rahat və firavan yaşamaları üçün bir çox yollar aranır və çıxış yolu kimi maariflənməkdə, müasir mədəniyyətin nailiyyətlərindən bəhrələnmək göstərilir. Heç də təsadüfi deyilki, sovet dövründə fikir və düşüncə azadlığının olmadığı bir vaxtda Azərbaycan mədəniyyətinin böyüklüyünün və tükənməzliyinin göstərilməsinin bir tək yolu qalırdı -Azərbaycan musiqisi. Bu xüsusda Ü.Hacıbəylinin "Gələcəyi unutmayaq" məqaləsindəki fikirlərinə diqqət yetirilməsi yerinə düşərdi.

Burada deyilirdi ki, öz gələcəyimizi yüksək qiymətləndirərək biz onun qayğısına qalmalıyıq. Biz gələcək nəsillər üçün elə şərait yaratmalıyıq ki, onlar gərgin zəhmət çəkmədən yaşasınlar, heç olmasa bizlərdən qalan çətinliklərlə üzləşməsinlər. Gələcəkdə rahat və inamlı həyat yaşayaraq tərəqqi və inkişaf üçün güclü imkan əldə etsinlər (Səməndərov, 2021, s. 11-12). Üzeyir Hacıbəyli 1948-ci ildə vəfat etmişdir dahi bəstəkarın dəfnində böyük izduham yaşanır, cənazəsi Bülbülün ifasında "Sənsiz" romansının sədaları altında qaldırılır və Fəxri xiyabanda dəfn olunur (Balinskiy raboçiy, 1931).

## Ədəbiyyat

1. Alekperova, Z., & Zabolotskiz. (1988). *Uzeir Qadjibekov*. M.: Muzıka.
2. Aslanov, M. (1977). *Üzeyir Hacıbəyov*. Bakı: Gənclik.
3. Aslanov, M. (1985). Üzeyir Hacıbəyov və «Əkinçi» qəzeti. *Azərbaycan SSR EA-nın Xəbərləri. Ədəbiyyat, Dil, İncəsənət seriyası*, (4).
4. Əliyeva, A. (1992). Ü. Hacıbəyovun "Azərbaycan" qəzetində publisistik fəaliyyəti haqqında. *Azərbaycan EA Xəbərləri (Ədəbiyyat, Dil və İncəsənət seriyası)*, (12).
5. Üzeyir Hacıbəyov kimdir? (2021, devral 24). https://personalar.az/uzeyir-hacibeyov-kimdir
6. Qobustan. (2013). https://portal.azertag.az/az/node/71
7. Kasimov, Q., & İbraqimov, M. (1985). *Uzeir Qadjibekov: İzvrannıe proizvedenie*.
8. Köçərli, F. (1965). *Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri*. Bakı: Azərbaycan SSR EA nəşriyyatı.
9. Məmmədli, Q. (1984). *Üzeyir Hacıbəyov 1885–1948: Həyat və yaradıcılığının səlnaməsi*. Bakı: Yazıçı.
10. Məmmədli, Q., & Quliyev, R. (1975). *Üzeyir Hacıbəyov*. Bakı: İşıq.
11. Qaçayev, A. (1983). Üzeyir Hacıbəyov və «İrşad» qəzeti. *Azərbaycan SSR EA-nın Xəbərləri. Ədəbiyyat, Dil, İncəsənət seriyası*, (3).
12. Safarova, Z. (1973). *Muzıkalno-esteticeskie vzglyadı Uzeira Qadjibekova*. M.: Sovetskiy Kompozitor.
13. Səməndərov, S. (2021). *XX əsrin I yarısında Azərbaycan ictimai fikrində iqtisadi portretlər*. Bakı: Elm və Bilik.
14. *Slovo ob Uzeire Qadjibekova*. (1985). Bakı.
15. *Üzeyir Hacıbəyov Ensiklopediyası*. (1996). Bakı: Azərbaycan.
16. *Üzeyir Hacıbəyov haqqında seçilmiş xatirələr və məqalələr*. (1990). Bakı.
17. *Balinskiy raboçiy*. (1931). No. 282.

Daxil oldu: 03.01.2025
Qəbul edildi: 20.04.2025